# bp-nin Azərbaycan universitetlərinə növbəti dəstəyi

**bp beynəlxalq universitetlərdə geniş istifadə edilən seçilmiş növbəti beş dərsliyin Azərbaycan dilinə tərcümə olunmuş nəşrlərini təqdim edib. Bu, şirkətin Azərbaycan universitetlərində tədrisin və təlimin keyfiyyətinin artırılmasına davamlı dəstəyinin daha bir nümunəsidir.**

Bu eyni zamanda bp-nin yerli universitetlər üçün qabaqcıl beynəlxalq təhsil resurslarına, bilik və təcrübələrə çıxış imkanının təmin edilməsinə yönəlmiş iri təhsil layihəsinin bir hissəsidir. Layihə hazırda növbəti beş kitabın tərcüməsi ilə davam edir və həmin kitabların təqdimatı gələn ilə planlaşdırılır.

M.F.Axundov adına Milli Kitabxanada yeni beş nəşrin ictimaiyyətə təqdimatı keçirilib. Tədbirdə çıxış edən bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Bu gün təqdim etdiyimiz beş kitab indiyədək Azərbaycana gətirdiyimiz 19 qabaqcıl beynəlxalq dərsliyin siyahısına dəyərli əlavədir. Bu kitablar yerli universitetlərin professor-müəllim heyətləri tərəfindən diqqətlə seçilərək tövsiyə edilib. Bu baxımdan hesab edirik ki, bu kitabların hamısına, həqiqətən də, böyük ehtiyac var və onlar Azərbaycanda ən çox tələb olunan dərsliklərdəndir. Nəzərə alsaq ki, bu dərsliklər dünyada ali təhsil üzrə ixtisaslaşan ən nüfuzlu nəşriyyatlar tərəfindən nəşr olunub, universitetlərimizin bu kitablara birbaşa çıxışının təmin edilməsi professor-müəllim heyəti və tələbələr üçün böyük bir dəstəkdir. Biz isə çalışacağıq ki, bu dəstəyi davam etdirək".

Təqdim edilmiş kitablar bunlardır: "Marketinq strategiyası: ilkin prinsiplərin və verilənlərin təhlili əsasında", "Rəqəmsal marketinq. Strategiya, tətbiq və təcrübə", "İqtisadi siyasət. Nəzəriyyə və praktika", "İnformasiya təhlükəsizliyi prinsipləri", "Növbəti. Gələcəyin qısa tarixi". Bu kitablar bp-nin yerli universitetlərə, kitabxanalara və müvafiq elm və təhsil müəssisələrinə hədiyyəsidir. Hər bir dərsliyin çap edilmiş 2000 nüsxəsi ilə yanaşı, rəqəmsal versiyası da yerli nəşriyyatın - TEAS PRESS NƏŞRİYYAT EVİ-nin onlayn platformalarında yerləşdirilib.

Dərsliklərin nəşri layihəsinin ümumi dəyəri 2,14 milyon AZN-dən çoxdur. Bu məbləğə ümumilikdə 29 kitabın, yəni indiyədək nəşr edilmiş 19, yeni təqdim edilmiş beş və gələn il təqdim olunacaq daha beş dərsliyin xərcləri daxildir.

Xatırladaq ki, indiyədək bp özü və əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından ölkəmizdəki sosial sərmayə layihələrinə ümumilikdə 110 milyon dollardan çox vəsait xərcləyib.

***"Azərbaycan"***

Azərbaycan.- 2024.- 22 fevral, № 40.- S.10.